# SEÇKİLƏRİ BEYNƏLXALQ MÜŞAHİDƏ MİSSİYASI

Azərbaycan Respublikası, Milli Məclisə Seçkilər – 6 noyabr 2005-ci il

## İLKIN FAKTLAR VƏ NƏTICƏLƏR HAQQINDA BƏYANAT

**Bakı, 7 noyabr 2005** – Azərbaycan Respublikasında Parlament Seçkilərini müşahidə edən Seçkiləri Beynəlxalq Müşahidə Missiyası ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları üzrə Bürosunun (ATƏT\DTİHB), ATƏT-in Parlament Assambleyasının (ATƏT PA), Avropa Şurası Parlament Assambleyasının (AŞPA), Avropa Parlamentinin (AP) və NATO Parlament Assambleyasının (NATO PA) birgə fəaliyyətidir.

İlkin faktlar və nəticələr haqqında bəyanat, hesablama və yekun nəticələrin elan olunması, səs vermə və nəticələrin hesablanmasına dair şikayətlərə və müraciətlərə baxılmasının qanunla müəyyən edilmiş müddətinin başa çatması və seçilmiş şəxslərin öz vəzifələrinin icrasına başlaması da daxil olmaqla seçki prosesinin başa çatmasından əvvəl açıqlanır. Seçkinin bütövlükdə yekun qiymətləndirilməsi qismən prosesin yerdə qalan bu mərhələlərinin gedişindən asılı olacaq.

ATƏT/DTİHB SMM müşahidə prosesini davam etdirmək üçün Azərbaycanda qalacaqdır və missiya lazım olan təqdirdə ictimaiyyət üçün əlavə açıqlamalar verə bilər. ATƏT/DTİHB bütün müşahidəçilərinin aşkarladığı faktların təfərrüatlı təhlilini əks etdirən və seçki prosesinin daha da təkmilləşdirilməsi ilə bağlı verilən tövsiyyələri özündə ehtiva edən Yekun Hesabatını proses başa çatdıqdan təqribən iki ay sonra açıqlayacaqdır. AŞPA 2006-cı ilin yanvar sessiyasında bu seçkilərə dair hesabatı qəbul edəcək və bundan sonra növbəti addımlar atılacaqdır.

BSMM-də təmsil olunan təsisatlar seçkilərin ATƏT öhdəlikləri və seçkilərin demokratik keçirilməsi üzrə digər beynəlxalq standartlara uyğun keçirilməsi istiqamətində Azərbaycan Respublikasının rəsmi dairələri tərəfindən edilən hər bir cəhdi dəstəkləməyə hazırdır.

## İLKİN NƏTİCƏLƏR

6 noyabr Milli Məclisə seçkiləri ATƏT və Avropa Şurasının seçkilərin demokratik keçirilməsi üzrə bir sıra standardlarına və öhdəliklərinə cavab verməmişdir. Seçkiqabağı dövrdə bəzi məsələlərlə bağlı, xüsusi ilə də namizədlərin qeydiyyata alınması ilə əlaqədar, irəliləyişlər nümayiş etdirilsə də, seçki prosesinin əsas məqamları, məsələn seçicilərin qeydiyyatı ilə bağlı vəziyyət qeyri-müəyyən olaraq qalmışdır və fundamental hüquqlardan olan sərbəst toplaşma hüququ üzərinə məhdudiyyətlərin qoyulması seçkiqabağı kampaniyanı mənfi səciyyələndirmişdir. Səsvermənin sakit keçməsinə baxmayaraq, seçki prosesi səslərin sayılması və xüsusilə hesablanması zamanı getdikcə pisləşmişdir.

Yüksək səviyyəli dövlət dairələri tərəfindən seçki prosesinin təkmilləşdirilməsi üçün siyasi iradənin olmasının ifadə edilməsinə və bunun xüsusilə Prezident tərəfindən verilən iki sərəncamda öz əksini tapmasına baxmayaraq, icra strukturları tərəfindən bu iradənin həyata keçirilməsi bəyan edilən məqsədlərə yalnız qismən çatmağa imkan vermişdir.

Müxtəlif partiyaları təmsil edən namizədlərin qeydiyyata alınması nəticəsində əksər dairələrdə seçkinin rəqabət şəraitində keçməsinə və seçicilərin seçim imkanının genişləndirilməsinə baxmayaraq, icra orqanlarının müdaxiləsi və KİV vasitələrinin qərəzli şəkildə tərəfdar olduqları namizədlər xeyrinə fəaliyyət göstərməsi nəticəsində seçki kampaniyası dövründə bütün namizədlər bərabər imkanlarla təmin edilməmişdir. Bəzi hallarda mülki və siyasi hüquqların pozulması, eləcə də bəzi namizədlərin və onları dəstəkləyənlərin incidilməsi və onlara hədə-qorxu gəlinməsi halları baş vermişdir. Şikayətlərə və müraciətlərə baxılması prosesi ümumilikdə bu nöqsanları aradan qaldırmamaşdır.

Aşağıdakı sahələrdə irəliləyişlər qeydə alınmışdır:

- Dövlət tərəfindən maliyyələşdirilən televiziya kanallarında namizədlərə pulsuz efir vaxtının ayrılmasına dair qanunun müddəalarına əməl olunması və efirə gedən debatlar ümumilikdə namizədlərə öz mesajlarını seçicilərə çatdırmaq imkanı vermişdir;
- Müxalifət tərəfindən təşkil olunan bir çox mitinq yürüşlərin və görüşlərin keçirilməsinə hökumət tərəfindən məhdudiyyətlər qoyulmasına və ya onların qarşısının alınmasına baxmayaraq namizədlər seçicilər ilə bir sıra belə mitinq-yürüşlər və görüşlər keçirə bilmişlər;
- 2005-ci ilin iyun ayında Seçki Məcəlləsinə edilən dəyişikliklər seçkilərlə bağlı qanunvericilik sistemini məhdud şəkildə təkmilləşdirmişdir;
- Proses zamanı Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən seçicilərin barmaqlarının mürəkkəblə işarələnməsi haqqında qərarın çox gec verilməsinə baxmayaraq, səsvermənin, səslərin sayılması və hesablanmasının etibarlılığını artırmaq məqsədilə bir sıra təlimatlar qəbul edilmişdir;
- MSK KİV vasitəsilə seçicilərin maarifləndirilməsi sahəsində geniş kampaniya həyata keçirmişdir;
- Bir sıra seçki komissiyaları şəffaf və kollegial şəkildə fəaliyyət göstərmiş və bir neçə komissiya tərəfindən qanunu pozan namizəd və rəsmi şəxslərə xəbərdarlıq edilmişdir;
- Əhalinin əksər hissəsinə yeni şəxsiyyət vəsiqələrinin paylanması təqdirəlayiq haldır və gələcək seçkilərdə seçicilərin qeydiyyata alınmasına müsbət təsir göstərə bilər;
- Konstitusiya Məhkəməsi qeydiyyata alınması qanunsuz şəkildə rədd edilmiş namizədin hüquqlarını bərpa etmişdir;
- Büdcəsinin 30 faizindən çoxu xarici dövlətlər tərəfindən maliyyələşdirilən yerli QHT-lərin seçkilərdə müşahidəçi qismində iştirak etməsi üzərinə qoyulan qadağanın bu seçkilər zamanı tam şəkildə tətbiq edilmə nöqteyi-nəzərindən çox gec ləğv edilməsinə baxmayaraq, bu qadağanın aradan qaldlrılması uzun müddət bundan əvvəl verilmiş tövsiyyəyə əməl edilməsi baxımından təqdirəlayiq haldır;
- Yerli müşahidəçilər demək olar ki, heç bir maneə ilə qarşılaşmadan fərdi qaydada qeydiyyatdan keçə bilmişdirlər.

Bununla belə, seçki prosesi zamanı aşağıdakılar da daxil olmaqla bir sıra vacib nöqsanlar aşkar edilmişdir:

- Yerli icra orqanları tez-tez kampaniyaya müdaxilə etmiş, qərəzsiz şəkildə fəaliyyət göstərə bilməmişdirlər və bir çoxları yalnız hökumət meylli namizədlərin maraqlarına xidmət etmə təəssüratını yaratmışlar;
- Qanuna zidd olaraq seçki prosesinə müdaxilə edən yerli icra strukturlarının nümayəndələri barəsində heç bir təsirli ölçü götürülməmişdir və bu da qanunun aliliyinə inamı azaltmışdır;

- Yerli icra orqanları tərəfindən müxalifət partiyalarının küçə yürüş-mitinqləri keçirmək cəhdləri üzərinə lüzumsuz məhdudiyyətlər qoyulmuş və bir neçə halda polis icazəsiz keçirilən yürüş-mitinqləri dağıtmaq məqsədi ilə qeyri-mütanasib güc tətbiq etmişdir. Daha sonra seçki kampaniyası partiya tərəfdarlarının tutulub saxlanması ilə daha da korlanmış və müxalifəti təmsil edən namizədlərin bir neçəsinin polis tərəfindən saxlanılması və ya digər formalarda incidilməsi baş vermişdir;
- Seçki komissiyalarının tərkibi hökumət meylli namizədlərin xeyrinə təşkil olunmuşdur və bır sıra hallarda seçkinin idarə edilməsinin müstəqilliyinə və qərəzsizliyinə inamı sarsıtmışdır;
- Kampaniyaya dair müddəaların məhdud şəkildə şərh olunması və müstəqil televiziya kanalına təzyiqlərin edilməsi seçicilərin müxtəlif məlumatlar əldə etmək imkanını məhdudlaşdırmışdır;
- Ümumilikdə, MSK və dairə seçki komissiyaları (DSK) seçici vəsiqələrindən istifadə edilməsi, hərbçilərin səsverməsi və şikayətlərə baxılması kimi bir sıra seçki məsələlərinin öhdəsindən lazımınca gələ bilməmişlər;
- Seçici siyahılarının təzələnmasi və seçici vəsiqələrinin paylanılması sahəsində vahid prosedur olmamışdır;
- Ən azından 38 seçki dairəsi hər bir dairə üzrə qeydə alınmış seçicilərin sayı ilə bağlı nəzərdə tutulan hüquqi normalardan kənara çıxmışdır;

## Seşki qünü

Seçki günü SBMM-in müşahidəçiləri seçki məntəqələrindən 87 faizində səsverməni müsbət və kifayət qədər yüksək göstərici olan 13 faizində isə mənfi qiymətləndirmişdirlər. SBMM seçicilərə seçim edilməsi istiqamətində təsir edilməsi, səlahiyyətsiz şəxslərin müdaxilə etməsi və ya prosesi istiqamətləndirməsi və seçki qutusuna əvvəlcədən seçki bülletenlərinin atılması istiqamətində edilən cəhdləri müşahidə etmişdir. Müşahidələr aparılmış məntəqələrdən 11 faizində barmağın mürəkkəblə işarələnməsi proseduru, xüsusi ilə barmaqda mürəkkəbin olub-olmamasının yoxlanılmasına əməl olunmamış və bəzi məntəqələrdə prosedur qətiyyən həyata keçirilməmişdir. Müşahidə edilmiş məntəqələrin demək olar ki, hamısında namizədlərin nümayəndələri və heç bir partiyaya mənsub olmayan yerli müşahidəçilər olmuşlar. Lakin, yerli müşahidəçilərin və MnSK-sı üzvlərinin seçki məntəqələrindən uzaqlaşdırılması və xaric edilməsi halları müşahidə olunmuşdur.

SBMM-ın müşahidəçiləri bülletenlərin sayılması prosesini müşahidə etdikləri məntəqələrin 43 faizində səslərin cayılmasını  pis yaxud çox pis olaraq qiymətləndirmişlər. Onlar bir çox müxtəlif ciddi qanun pozuntularına yol verilməsini müşahidə etmişlər. Bu pozuntular arasında nəticələri əks etdirən protokolların təhrif edilməsi (15 faiz), nəticələri əks etdirən protokolun karandaşla doldurulması (15 faiz), müşahidəçilərə hədə-qorxu gəlinməsi (17 faiz) və səlahiyətsiz şəxslərin prosesi istiqamətləndirməsi (14 faiz) hallarını göstərmək olar. Müşahidə edilən sayma proseslərindən 54 faizində nəticələri əks etdirən protokolların qanunun tələbinə müvafiq olaraq açıqlanması baş vermədi.

Müşahidə aparılan DSK-nın 31 faizində hesablanma prosesinin aparılması, ümumilikdə, pis, yaxud çox pis olaraq qiymətləndirilmişdir. 7 noyabr səhər saat 11:00-a qədər MSK internet səhifəsinə heç bir məntəqənin protokolunu yerləşdirməmişdir.

# İLKİN FAKTLAR

## Ümumi Məlumat

6 noyabr 2005-ci il seçkiləri 18 oktyabr 1991-ci ildə Azərbaycanın müstəqillik əldə etdiyindən sonra bu ölkədə keçirilən üçüncü parlament seçkiləridir. ATƏT/DTİHB 1995-ci ildə BMT ilə birlikdə Milli Məclisə keçirilən seçkiləri müşahidə etmişdir. 2000-ci ildə isə ATƏT/DTİHB ATƏT PA-sı və AŞPA ilə birgə 2000-ci il parlament seçkilərini müşahidə etmişdir. Bundan əlavə, ATƏT/DTİHB digər beynəlxalq təsisatlarla birlikdə 1998 və 2003-cü il prezident seçkilərini də müşahidə etmişdir. Keçən seçkilər zamanı müşahidəçilər məhdud şəkildə irəliləyişlərin olduğunu bildirsələr də, onlar (müşahidəçilər) Azərbaycanda seçkilərin ATƏT öhdəliklərinə və seçkilərin demokratik keçirilməsi üzrə digər beynəlxalq standartlara uyğun keçirildiyini təsdiq etməmişlər.

2002-ci ildə Konstitusiyaya edilən dəyişikliklərdən sonra 6 noyabr 2005-ci il seçkiləri sadə majoritar seçki sistemi ilə Milli Məclisə keçirilən ilk seçkilərdir. 125 Parlament üzvünun hamısı tək-mandatlı dairələr üzrə bir mərhələli səsvermə əsasında seçiləcəklər.

6 noyabr seçkilərində iştirak etmək üçün MSK 48 siyasi partiya və bloku qeydiyyatdan keçirmişdir. Hazırda Prezident İlham Əliyevin sədrlik etdiyi Yeni Azərbaycan Partiyası (YAP) 1993-cü ildən bəri hökumətdə dominant mövqeyə malikdir. Müxalifət tərəfində iki əsas blok mövcuddur: Azərbaycan Milli İstiqlal Partiyası (AMİP) daxil olmaqla “Yeni Siyasət” (YeS) bloku və Müsavat Partiyası, Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP), Azərbaycan Demokrat Partiyası (ADP) tərəfindən təşkil edilən “Azadlıq” bloku. 60-dan yuxarı dairədən namizədliklər irəli sürmüş digər partiya isə müxalifət düşərgəsindən olan Azərbaycan Liberal Partiyasıdır (ALP).

## Hüquqi baza

Parlament seçkilərinə dair hüquqi baza 2002-ci ildə referendum yolu ilə dəyişikliklər edilmiş Konstitusiya, Seçki Məcəlləsi, Toplaşma Azadlığı haqda Qanun, Televiziya və Radio Yayımı haqqında Qanun və digər qanunvericiliк aktlarını özündə ehtiva edir. Seçki Məcəlləsi 27 may 2003-cü ildə qəbul edilmiş və Milli Məclis tərəfindən bu Məcəlləyə son dəyişiklik 26 iyun 2005-ci ildə edilmişdir. İyunun 26-da edilmiş dəyişikliklərin bir neçəsinin seçki prosesinin təkmilləşdirilməsi ilə bağlı verilmiş əvvəlki tövsiyyələri yerinə yetirməsinə baxmayaraq, ATƏT/DTİHB və Avropa Şurasının Venesiya Komissiyası Yekun Rəyində belə nəticəyə gəlmişlər ki, tövsiyyələrin əksəriyyətinə əməl edilməmiş, yaxud qismən əməl edilmişdir.

Seçki Məcəlləsinin müsbət cəhətlərinə şəffaflığın artırılması, hər üç səviyyədə seçki komissiyalarının üzərinə qərəzsiz fəaliyyət göstərilməsi tələbinin qoyulması, eləcə də məmurların və prosesin digər iştirakçılarının hüquq və vəzifələrinin müfəssəl şəkildə təsvir edilməsi daxildir.

Lakin Qanunvericilikdə hələ də nöqsanlar mövcuddur və bu da seçkilərin keçirilməsinə öz mənfi təsirini göstərmişdir. Seçki komissiyalarının tərkibi hazırda hakimiyyətdə olan qüvvələrin xeyrinə təşkil olunmuşdur və bu da seçkinin idarə olunmasının müstəqilliyinə inamı sarsıdır. Seçici vəsiqələrinin tətbiq edilməsi yalnız həmin vəsiqələrin paylanması üzərində ciddi nəzarət və hesabatlılıq mövcud olduqda effektiv ola bilər. Sərbəst Toplaşma haqqında Qanun praktiki olaraq, yerli icra məmurlarına kifayət qədər ixtiyar verir ki, onlar seçki ilə bağlı keçirilən mitinq yürüşlərinin və digər kampaniya tədbirlərinin keçirilməsini məhdudlaşdırsınlar yaxud qadağan etsinlər. Seçki Məcəlləsinin şikayətlərə baxılmasına dair müddəaları birmənalı deyildir. Bu müddəalar namizəd və siyasi partiyalar tərəfindən daxil olan şikayətlərlə bağlı ilkin araşdırmaların kim tərəfindən aparılacağını dəqiq göstərmir və bu səbəbdən müxtəlif prosedur

qaydaları kimi şərh olunur. Seçki Məcəlləsi xaricdə yaşayan vətəndaşların parlament seçkilərində səsvermə hüquqlarını təmin etmir. Nəticə etibarilə, səsvermə imkanına malik olmayan çoxlu sayda vətəndaşların olmasına baxmayaraq, parlament seçkiləri zamanı tətbiq edilən təkmandatlı seçki sisteminin xaricdə səsvermənin təşkili üçün ciddi maddi-texniki problemlər yaratdığı başa düşünüləndi.

11 may və 25 oktyabr 2005-ci il tarixlərində Prezident tərəfindən imzalanmış sərəncamlar ‘seçki sahəsində səhvlərin və nöqsanların olmasını təsdiq etmişdir. Həmin sərəncamlarla seçici vəsiqələrinin paylanması və yerli icra orqanları tərəfindən prosesə müdaxilə olunması da daxil olmaqla, davam etməkdə olan qüsurlar müəyyən edilmişdir. 25 oktyabrda imzalanmış sərəncamda digər məsələlərlə yanaşı təklif edilmişdir ki, büdcəsinin 30 faizindən çoxu xarici dövlət mənbələrindən maliyyələşən yerli QHT-lərin seçkilərdə müşahidəçi qismində iştirak etməsi üzərinə qoyulan qadağa Milli Məclis tərəfindən ləğv edilsin; çoxdəfəli səsvermə ehtimalının qarşısını almaq üçün MSK barmaqların görünməz mürəkkəblə işarələnməsini təchiz etsin; MSK şikayətlərə baxılması ilə bağlı prosedur qaydaları hazırlasın və Baş Prokurorluq ilə birgə inzibati xətalar və cinayət hallarına dair cəza verilməsi də daxil olmaqla namizədlər tərəfindən qanun pozuntuları barəsində daha təkmilləşmiş qərarlar qəbul olunsun; mərkəzi və yerli icra orqanları toplaşma azadlığı üçün bərabər imkanlar yaratsın. 28 oktyabrda Milli Məclis İctimai Birliklər və Fondlar Haqqında Qanununa təklif edilən dəyişikliyi qəbul etdi və yerli müşahidəçilər üzərində olan məhdudiyyət qaldırıldı.

## Seçkinin İdarə Olunması

Seçki 15 nəfərlik heyətdən ibarət olan Mərkəzi Seçki Komissiyasının (MSK) rəhbərliyi ilə üç səviyyədə fəaliyyət göstərən seçki komissiyaları tərəfindən idarə olunur. 125 dairə seçki komissiyası (DSK) və 5053 məntəqə seçki komissiyası mövcuddur. Seçki Məcəlləsinə müvafiq olaraq, seçki komissiyasının iclası komissiyanın həlledici səs hüquqlu üzvlərinin 2/3 hissəsi iştirak etdikdə səlahiyyətli hesab edilir.

Seçki Məcəlləsinin müvəqqəti müddəalarına əsasən, bütün komissiyaların sədrliyinə namizəd parlamentin çoxluğu tərəfindən irəli sürülür. Nəticədə parlamentdə üstünlük təşkil edən iqtidar və iqtidar yönümlü partiyalar qərarların qəbul edilməsində üstünlük əldə etmişlər. Seçkiqabağı dövrdə bəzi dairələrdə namizədliyi müxalifət tərəfindən irəli sürülmüş komissiya üzvləri DSK-nın görüşlərinin keçirilməsi haqqında onlara xəbər verilməməsi, vacib sənədlərlə tanış olmalarına icazə verilməməsi və qərarların qəbul edilməsi prosesinə az dərəcədə təsir etmək imkanları olduğunu bildirmişlər/iddia etmişlər. ATƏT/DTİHB SMM bu iddialardan bəzilərini dəqiqləşdirə bilmişdir.

MSK müntəzəm olaraq iclaslarını keçirmişdir və bu iclaslar KİV nümayəndələrinə və müşahidəçilərə açıq olmuşdur. Qərarların əksəriyyəti MSK-nın internet səhifəsinə yerləşdirilmişdir. MSK seçkilərlə bağlı texniki hazırlıq işlərinin əksəriyyətini Seçki Məcəlləsinin müəyyən etdiyi son tarixlərə qədər başa çatdırmışdır. KİV vasitəsi ilə geniş şəkildə seçicilərin maarifləndirilməsi proqramı həyata keçirilmişdir.

Şikayət və müraciətlərə baxılması, Seçki Məcəlləsinin DSK və MnSK-ları tərəfindən vahid qaydada tətbiq olunmasının, hərbiçilərin səsverməsinin təşkil olunması da daxil olmaqla MSK-nın fəaliyyətinin bir sıra sahələri problemli olmuşdur. Müşahidəçilər DSK və MnSK-larda bəzi hüquqi və prosedur məsələlərinin izah olunması ilə bağlı dolaşıqlığın olması barədə məlumat vermişlər.

Seçki Məcəlləsinə əsasən hərbiçilərin səsverməsi adi seçki məntəqələrində təşkil edilməli və yalnız müstəsna hallarda xüsusi hərbi məntəqələrdə keçirilməlidir. Lakin müstəsna hallarda təşkil olunmasına rəğmən xüsusi hərbi məntəqələrin təşkil olunması təcrübəyə çevrilir. MSK hərbiçilərin səsverməsinin təşkili və aparılması ilə bağlı məsuliyyəti Müdafiə Nazirliyinin üzərinə qoyur ki, bu da prosesin qeyri-şəffaf olmasına gətirib çıxarır.

Seçici siyahıları yerli icra orqanları tərəfindən hazırlanmışdır. Seçicilər sentyabr ayının 30-dək öz adlarını məntəqələrdəki siyahılara əlavə edə bilərdilər, lakin məlum olduğuna görə az sayda seçici bundan istifadə etmişdir. Siyasi partiyalar seçici siyahılarının qeyri-dəqiqliyi ilə bağlı MSK-ya çoxlu sayda şikayətlər ünvanlamışlar. Seçicilərin adları seçki gününə qədər məhkəmə qərarı ilə seçici siyahılarına salına bilər.

Seçki Məcəlləsinə əsasən seçici vəsiqəsi seçiciyə onun adının hər hansı bir məntəqənin siyahısında olmasını təsdiqləyən sənəd kimi verilir. Eyni zamanda rəsmi şəxslər bu vəsiqələrə çoxdəfəli səsvermənin qarşısını alacaq vasitə hesab edirlər. ATƏT\DTİHB SMM seçici vəsiqələrinin verilməsində hesabatlılığın və vahid prinsipin olmamasını müşahidə etmişlər
Oktyabr ayının 25-də prezident tərəfindən sərəncamın verilməsindən sonra, seçkilərin keçirilməsinə 2 həftədən az bir müddət qalmış, MSK çoxdəfəli səsvermə ehtimalının qarşısını almaq üçün seçicilərin barmaqlarının görünməz mürəkkəb vasitəsi ilə işarələnməsi haqqında qərar qəbul etdi. Mürəkkəblə işralənmənin belə gecikmiş vaxtda, seçki məmurların təlimatlandırılması başlandıqdan sonra tətbiqi seçkilərin təşkilində treninq, seçicilərin məlumatlandırılması və yeni prosedurun həyata keçirilməsi istiqamətində ciddi problemlər yaratmışdır. Mürəkkəblə işarələnmənin tətbiqindən sonra MSK səs vermək üçün seçici vəsiqəsini təqdim edilməsini seçicilər üçün hüquqi tələb kimi tətbiq etməməyi qeyri-rəsmi olaraq razılaşdırmış oldu. DSK və MnSK-ların bu haqda muvafiq olaraq məlumatlandırılıb- məlumatlandırılmamaları aydın deyil.

Daxili İşlər Nazirliyinin fəal surətdə bütün vətəndaşlara şəxsiyyət vəsiqəsi paylamasına baxmayaraq, proses hələ başa çatmamışdır və buna görə MSK seçicilərin səs vermə hüququnu təmin etmək üçün seçki günündə köhnəlmiş və qüvvədən düşmüş sovet pasportlarının və 9 N.-li formaların istifadə olunmasına icazə vermişdir.

Milli Məclisin 9 üzvü hazırda Ermənistan tərəfindən işğal olunmuş ərazilərin "sürgündə" olan dairələri üzrə seçilməlidir. MSK 9 dairə və bu dairələrin tərkibində 487 məntəqə yaratmışdır. Bu dairə və məntəqələr 1991-ci il münaqişəsi nəticəsində məcburi köçkünlərin öz ərazilərini tərk edərək məskunlaşdığı ərazilərdə təşkil edilmişdir. Digər rayonların ərazisində "sürgündə" olan yaxud qismən zəbt olunduğundan öz ərazisində yerləşən məcburi köçkünlərə aid məntəqələrin seçici siyahılarındakı adların sayı təqribən 283000 olmuşdur. Məcburi köçkünlərlə bağlı seçicilərin qeydiyyata alınması və səs verməsi prosesi seçkinin idarə edilməsini çətinləşdirmişdir.

Seçki Məcəlləsinə əsasən hər bir dairə üzrə seçicilərin sayı 5 faizdən, seyrək məskunlaşmış ərazilərdə isə 10 faizdən çox, yaxud az olmamaq şərti ilə seçicilərin sayı seçki dairələrində bərabər olmalıdır. MSK-nın 4 noyabr vəziyyətinə təqdim etdiyi məlumatlara əsasən 38 dairədə bu fərq 10 faizi və onların 14-də 15 faizi ötür.

## Namizədlərin Qeydə Alınması

Namizədlərin qeydə alınması sentyabr ayının 7-də başa çatmışdır. Qeydiyyat prosesi rəvan keçmiş və əvvəlki parlament seçkilərinə rəğmən xeyli irəliləyiş nümayiş etdirmişdir. 2148 müraciətdən 2063-nün namizədliyi qeydə alınmışdır. Hakimiyyətdə olan YAP partiyası, müxalifətdən olan ALP, Azadlıq və YeS bloklarından olan namizədlər 60-dan çox dairədə qeydiyyatdan keçdilər və bununla dövlət tərəfindən maliyyələşdirilən KİV-də pulsuz efir vaxtı və

çap səhifəsi almaq imkanı əldə etdilər. Namizədlərin yarıdan çoxu özlərinin "müstəqil yaxud heç bir partiyaya mənsub olmadıqlarını" elan etdilər.

Lakin seçkilərdən dərhal öncə namizədlərin böyük hissəsi – demək olar ki, dörddə biri namizədliklərini geri götürdü. Namizədliyin geri götürülməsinin son tarixi 26 oktyabr idi. MSK-nın verdiyi məlumata əsasən 5 noyabra alınan məlumata görə 476 namizəd öz namizədliyini geri götürmüş, 41 namizədin qeydiyyatı Apelyasiya Məhkəməsi, iki namizədin qeydiyyatı isə MSK tərəfindən ləğv edilmiş və iki namizəd vəfat etmişdir.

ATƏT/DTİHB BSMM-ə namizədlərdən onların namizədliklərini geri götürülməsi üçün bir çox dairələrdə onlara qanunsuz təzyiq göstərilməsi barəsində məlumatlar daxil olmuşdur. Bu cür təzyiqlər etmək üçün isə seçilən variantlar isə şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi, vergi məsələlərinin araşdırılması və namizədlərin və onların ailələrinin sahib olduğu özəl biznesin bağladılması yolu ilə hədə-qorxu gəlmək olmuşdur. Apelyasiya məhkəməsinə daxil olan bir sıra müraciətlər namizədlərin fərdi şəxslərə az miqdarda rüşvət verməkdə günahlandırılaraq namizdəliyinin qeydiyyatdan çıxarılmasına aid olmuşdur. Qeydiyyatdan çıxarılmış namizədlərin çoxu deyirlər ki, bu müraciət siyasi məqsədlərlə edilmişdir və bu prosesin axırıncı dəqiqələrdə baş verməsi müdafiəyə hazırlaşmağa demək olar ki, imkan verməmişdir.

## Kampaniya Mühiti

*Ümumi nəzər*

Seçki kampaniyası sentyabr ayının 7-də başlanmışdır və namizədlər fəal surətdə seçicilərlə təmasda olmuşlar. Kampaniya zamanı çıxışlar əksər hallarda gərgin və mənfi xarakter daşımış, bununla da qütbləşmiş siyasi atmosferi əks etdirmişdir. Kampaniya mühiti hökumətdə, seçki komissiyaları da daxil olmaqla əksər inzibati ərazi idarələrində dominant mövqeyə malik YAP partiyasının dominantlıq etməsi faktı ilə səciyyələnir.

Kampaniya mühiti yerli icra orqanlarının seçki prosesinə çoxsaylı müdaxiləsi nəticəsində korlanmışdır. Geniş yayılmış formada edilən bu müdaxilələr ya hakimiyyətdə olan qüvvələri təmsil edən namizədlərin xeyrinə yaxud hər hansı müxalifət namizədinin əleyhinə edilmişdir.

ATƏT\DTHİB SMM müxalifətdən olan çoxlu sayda namizədlərin, onların ailə üzvlərinin və partiya fəallarının saxlanılmasını müşahidə etmiş və bu barədə məlumatlar almışdır. Bundan əlavə namizədlərin bir çoxu və kampaniya heyəti kampaniyalarını həyata keçirən zaman, məsələn, seçicilərlə görüşərkən, plakatlarını yapışdırarkan, yaxud seçicilərə vərəqələr paylayan zaman incidilmişlər. Hərəkət azadlığı da kampaniya zamanı tez-tez məhdudlaşdırılmışdır.

Namizədlər tərəfindən hədiyyə və xidmətlərin təqdim olunması kimi qeyri-qanuni kampaniyanın keçirilməsi geniş formada müşahidə edilmişdir. Eyni zamanda müşahidələrdən belə məlum olur ki, seçicilərin səsini almağa xidmət edən bu kampaniya vasitəsi çox hallarda qanuni vasitə kimi qəbul olunur. Oktyabr ayının 3-də Lider televiziyasında hazırda 19-cü dairə üzrə namizəd olan YAP-ın İcraçı katibinin qocalar evində 20 televizor paylanması yayımlanmışdır. Bu cür hallar barədə rəsmi dairələrə şikayətlər edilmiş, lakin rəsmi dairələr bu cür fəaliyyətin qanuna uyğunluğunu müəyyən etmək sahəsində iş aparmamışlar.

ATƏT/DTİHB SMM idarələrdən, xidməti avtomobillərdən, işçilərdən, ümumilikdə inzibati resurslardan kampaniya məqsədləri üçün istifadə edildiyini müşahidə etmişdir. SMM məktəblərin, xəstəxanaların, dövlət tabeliyində olan müəssisələrin heyəti seçilmiş namizədlərə səs verməyə tahrik edən imzalar toplamış rəhbərlərlə bağlı olaraq, vətəndaşlardan, xüsusən də

regionlardan çoxlu sayda məlumatlar almışdır. Bundan başqa ATƏT/DTİHB SMM məktəblərin işçi heyətinə və şagirdlərin valideynlərinə hədə-qorxu gəlinməsi və məcbur edilmələri haqqında da məlumatlar almışdır.

Prezidentin verdiyi 11 may və 25 oktyabr tarixli sərəncamlarda bu halların baş verməsi təsdiq edilərək, dövlət və yerli icra orqanlarına parlament seçkilərinin tam şəkildə Seçki Məcəlləsinə uyğun halda həyata keçirilməsini təmin etmələri barədə göstərişlər verilmişdir. Bu sərəncamlar ATƏT/DTİHB SMM və AŞPA-nın seçkiqabağı missiyası tərəfindən müşahidə edilən nöqsanların bəzilərinə toxunsa da, bu istiqamətdə icra prosesinin uğursuzluğu arzulanan nəticələrin əldə olunmasına imkan verməmişdir.

*Sərbəst Toplaşma Azadlığı*

11 may tarixli prezident sərəncamının yerli icra orqanlarına 'toplaşma azadlığının təmin edilməsi istiqamətində lazımı tədbirləri həyata keçirmələri barədə göstəriş verməsinə baxmayaraq, müxalifəti təmsil edən qüvvələr Bakının və rayon şəhərlərinin mərkəzlərində mitinq yürüşləri keçirməyə cəhd edərkən, tez-tez məmurlar tərəfindən tətbiq edilən qeyri-mütanasib məhdudiyyətlərə məruz qalmışlar. Toplaşma Azadlığına görə küçə yürüşlərinə tətbiq edilən məhdudiyyət və qadağalar "xüsusi zərurət olduqda" və ya "son tədbir" kimi tətbiq edilməli və qanunla müəyyən edilməlidir. Müxalifət tərəfi aksiyalar üzərində qoyulmuş məhdudiyyətlərlə bağlı seçki komissiyalarına şikayət etsələr də, onlar bu məsələlərlə bağlı məhkəməyə müraciət etmədirlər.

Müxalifətin aksiya keçirməsi üçün müvafiq yerlə təmin olunması barəsində müxalifətlə hökumət arasında gedən dialoq kampaniyanın əvvəlində çözülməz problemə çevrildi. Azadlıq blokunun Bakının mərkəzində aksiya təşkil etmək barədə müraciəti Bakı İcra Orqanı tərəfindən rədd edildi. Nəticədə, hüquq-mühafizə orqanlarının dəfələrlə qeyri-qanuni mitinqlərin polis vasitəsi ilə dağıdılacağı haqqında bəyanatlar vermələrinə baxmayaraq, Azadlıq bloku icazəsiz aksiyalar təşkil etdi.

25 sentyabr, 1 oktyabr, 9 oktyabr və 23 oktyabr tarixlərində aksiya keçirmək cəhdi polis olduğu ehtimal edilən, mülki formalı şəxslərdən dəstək alan polis tərəfindən zorakılıq tətbiq edilməklə dağıdıldı. Oktyabr ayının 9-da ATƏT/DTİHB SMM polisin bir kafeyə hücum edərək, ordakı adamları dəyənəklərlə döyməsi və ordan dağıdılması hadisəsi də daxil olmaqla, qeyri-adekvat və lazımsız zorakılığın tətbiq edilməsinin şahidi olmuşdur. Namizədlər və iştirakçıların həbs olunması və ya bir neçə saatlığa saxlanılması və çoxlu sayda adamların zədə alması barədə məlumat verilmişdir.

Oktyabr ayının 23-də Azadlıq bloku şəhərin mərkəzində daha kiçik həcmli mitinq yürüşləri təşkil etmək qərarına gəlmişdir. Polis əsas ticarət küçələrindən birində bir çox yoldan ötənin Azadlıq blokunu dəstəkləyənlər sırasında olmasından "şübhələnərək" həbs etmişdir. ATƏT/DTİHB SMM müşahidə etmişdir ki, ən azından 60-80 nəfər avtobuslarda müvəqqəti saxlanılmışdır. Hadisə yerindəki polis zabitləri SMM müşahidəçilərinə demişlər ki, həmin şəxslər ya polis məntəqəsinə aparılır, ya da şəhərin kənarlarına aparılaraq orada buraxılır. Lakin Bakı polisinin SMM-ə verdiyi məlumata əsasən yalnız 15 nəfər həbs olunmuşdur və digər saxlanılmalar inkar edilmişdir.

Azadlıq blokunun liderləri güclü polis nəzarəti altında olsa da rayonlarda seçicilərlə görüşlər keçirmişdir. ATƏT/DTİHB SMM Azadlıq blokunun seçicilərlə təşkil etdiyi icazəli aksiya və görüşlərinin keçirilməsinə də belə bir neçə dəfə əngəl törədilməsi (Qazax, Ağstafa) və dağıdılması (Gəncə) halının baş verməsini təsdiq etmişdir. SMM Tovuz və Gədəbəy arasındakı yollarda və Balakən rayonundakı yollarda, açıq-aydın Azadlıq bloku tərəfindən keçirilən görüşə nəzarət

edilməsi və qarşısının alınması məqsədi ilə, hərəkətin dayandırıldığnı müşahidə etmişdir. Prezidentin 25 oktyabr tarixli sərəncamda bu cür hallarin qarşısının alınması xüsusilə vurğulanmış və Daxili İşlər Nazirliyinə seçkiqabağı kampaniyanın aparılması üçün qanuni əsaslarla şərait yaradılması tapşırığı verilmişdir.

Hökumətin bütün Azərbaycan ərazisində təhlükəsizlik əməliyyatına başlamasına baxmayaraq, Azərbaycandan kənarda mühacirətdə yaşayan lider və hazırda qeydiyyatda olan namizəd c-b Rəsul Quliyevin geri dönməsi xəbərini alan ADP partiyası öz tərəfdarlarını aeroporta, Quliyevi qarşılamağa çağırdı. C-b Rəsul Quliyev dövlət mülkiyyətini mənimsəməkdə ittiham edilir. Bütün ölkə ərazisində çoxlu sayda adamlar həbs edildi və ya saxlanıldı, və özbaşına olaraq onların ölkə üzrə sərbəst hərəkət etmələrinə imkan verilmədi. Bu hadisələrdən dərhal sonra iki nazir və digər yüksək vəzifəli şəxslər vəzifələrindən azad edildilər və güc yolu ilə hakimiyyəti devirmək planını dəstəkləməkdə günahlandırılaraq həbs edildilər. Müxalifətin çağırışlarına qoşularaq c-b Rəsul Quliyevi Bakıda qarşılamağa gələnlərə edilən hədə-qorxu bu hadisə başa çatdıqdan sonra da davam etdi.

Noyabrın 4-də polis cənab Ali Kərimlinin, müxalif AXCP rəhbərinin kampaniya qərargahında axtarış aparmış və onun kampaniya rəhbərini qısa müddətə saxlamışdır. Noyabrın 5-də buna bənzər axtarış cənab Rəsul Quliyevin kampaniya qərargahında aparılmış və kampaniya ilə məşğul olan iki işçi saxlanılmış, verilən məlumatlara görə onlardan biri hələ də həbsdədir.

## KİV Mühiti

Televiziya Azərbayanda əsas infomasiya mənbəyidir. Şəhərlərdən kənarda qəzetlərin yayılması çox az və ya yox dərəcəsindədir və əksər qəzetlər aşağı tirajla buraxılır. KİV mühitinin dövlət tərəfindən maliyyələşdirilən və özəl televiziya kanalları, dövri mətbuat vasitələri daxil olmaqla, çeşidli olmasına baxmayaraq, bir sıra yerli əməkdaşlar və beynəlxalq media təşkilatları Azərbaycanda KİV-in müstəqilliyi məsələsi ilə bağlı narahatlıqlarını bildirmişlər. 2005-ci ilin mart ayında tanınmış jurnalistin kim tərəfindən qətlə yetirilməsi məsələsi açılmamışdır və bu da KİV ictimaiyyətinə öz təsirini göstərməkdədir. Məlumatları müstəqil və obyektiv şəkildə təqdim edən media qurumunun olmamasının seçicilərin çeşidli məlumatlar əldə etmək imkanına təsiri etməsi ilə bağlı narahatlıqlar yaranmışdır.

ATƏT/DTİHB SMM tərəfindən monitorinqi aparılan və dövlət tərəfindən maliyyələşdirilən televiziya kanalları pulsuz efir vaxtını dörd əsas siyasi partiya və bloklar arasında bərabər paylaşdırmış və onlara öz mesajlarını xalqa çatdırmağa imkan yaratmışlar. Müntəzəm olaraq yayımlanan debatlar namizədlərə seçiciləri öz mövqeləri ilə daha yaxından tanış etməyə imkan vermişdir. Lakin pulsuz efir vaxtı istisna olmaqla, monitorinqi aparılan bütün elektron media vasitəsi ilə axşam saat 6-12 arasında yayımlanan əsas informasiya saatlarında xəbər proqramları hazırda hakimiyyətdə olan qüvvələrin və onların namizədlərinin xeyrinə olaraq yayımlanmışdır.

Qanun müddəalarının ziddiyyətli və məhdud şəkildə şərh olunması kampaniyanın xəbər proqramlarında işıqlandırılmasına əngəllər törədir. Kampaniya müddəalarının MSK tərəfindən şərh edilməsi hər hansı namizəd barəsində məlumat verilməsi ilə namizədin özü barəsində təşviqat aparması arasında medianın rolunun nədən ibarət olması məsələsində çaşqınlıq yaratmışdır. MSK gündəlik xəbər proqramları zamanı namizəddən müsahibə alınması ilə bağlı öz mövqeyində qalmaqda davam edir. Onun fikrincə əgər bu zaman hər hansı bir namizəddən müsahibə alınırsa, onda namizədlər üçün bərabər imkanlar yaradılması prinsipinə uyğun olaraq bütün namizədlərdən müsahibə alınmalıdır. Lakin bu dövlət rəsmilərinin, ən əsası isə YAP partiyasının sədri olan Prezidentin intensiv şəkildə mediada işıqlandırmasını məhdudlaşdırmamışdır.

Əsas informasiya saatlarında və digər cari hadisələr barədə proqramlarda AzTV kanalı aydın tərəfgirlik nümayiş etdirmişdir. Media monitorinqinin nəticələrinə əsasən seçki günündən əvvəlki səkkiz həftədə AzTV əsas informasiya saatlarında efirə gedən siyasi və seçki ilə bağlı xəbər proqramlarının 97 faizini xaraktercə hədsiz dərəcədə müsbət olmaqla, hazırkı Prezidentin, hökumətin, prezidentin icra aparatının və YAP partiyasının fəaliyyətinin işıqlandırılmasına həsr etmişdir. Bunun əksinə olaraq, AzTV müxalifəti təmsil edən namizədlərin fəaliyyətini xəbər proqramlarında demək olar ki, işıqlandırmamışdır. Nəticədə isə AzTV namizədlərə və siyasi partiyalara bərabər imkanların yaradılmasını nəzərdə tutan qanun müddəasını təmin etməmişdir. AzTV kanalı barədə heç bir hüquqi ölçü götürülməmisdir.

İctimai Televiziya (İTV) əsas informasiya saatlarında yayımlanan xəbər proqramlarının 79 faizini demək olar ki, müstəsna olaraq müsbət yaxud neytral tonda olmaqla hazırkı Prezidentə, hökumətə və YAP partiyasına həsr etmişdir. Bu proqramlarda Azadlıq blokuna ayrılan vaxt cəmi 20 faiz təşkil etmişdir və bunun da mahiyyətcə 3 faizi müsbət olmuş və 47 faizi neqativ xarakter daşımışdır. İctimai televiziya efirə verdiyi siyasi və analitik proqramları vasitəsi ilə tamaşaçılara AzTV-yə nisbətən daha artıq siyasi məlumatlar təklif etmişdir. Müsbət mənada qeyd etmək lazımdır ki, həm İctimai televiziya, həm də AzTV MSK nümayəndələrinin iştirakı ilə efirə verilən seçicilərin maarifləndirilməsi proqramına nəzərdə tutulduğundan artıq vaxt ayırmışlar.

Özəl kanallar olan Lider TV, Space TV və ATV daha çox İctimai televiziyanın tutduğu siyasi favoritizm xəttinə bənzər xətt nümayiş etdirmişlər. Bundan əlavə Lider kanalı əsas informasiya saatlarında efirə gedən xəbərlər zamanı müxalifətdən olan namizədlərin nüfuzuna xələl gətirən məlumatlar və proqramlar da yayımlamışdır.

*ANS* ümumilikdə kampaniyanın işıqlandırılmasını daha tarazlı şəkildə həyata keçirən yeganə kanal olmuşdur. Lakin bu kanalın tamaşaçı dairəsi bütün ölkəyə yayımlanan digər kanallardan xeyli azdır. ANS-in nümayəndələri daha geniş auditoriya ilə əlaqə yaratmaqda inzibati çətinliklərinin olması barədə məlumat vermişlər. Sentyabr ayının 30-da Milli Teleradio Şurası (Şura) lisenziya məsələsi ilə bağlı olaraq ANS-ə Şəkidə açdığı yerli radiosunun bağlanması haqqında göstəriş vermişdir. Buna baxmayaraq Rabitə və İnformasiya Texnologiyaları Naziri bildirmişdir ki, ANS proqramlarını qanuna uyğun şəkildə yayımlamışdır. Bundan əlavə Şura ANS-i xəbərdar etmişdir ki, onun ümummilli yayım üçün lisenziyası ləğv edilə bilər. Məhkəmə qərarı olmadan hər hansı kütləvi informasiya vasitəsinin seçki kampaniyası zamanı məcburi bağlanması narahatlıq doğuran haldır.

Müxalifətdən olan namizədlər üçün öz media kampaniyalarını aparmaq imkanı pulsuz və ödənişli siyasi reklamla məhdudlaşdırılmışdır. Siyasi reklam digər seçkilərə nisbətən ucuz olmuş və xəbər proqramlarının hökumət meylli qüvvələrin xeyrinə qərəzli şəkildə yayımlanması ilə bağlı yaranmış vəziyyəti müəyyən dərəcədə yaxşılaşdırmışdır. Lakin oktyabr ayının 17-də AzTV bəzi yayımlarda guya hökuməti zorla dəyişmək çağırışlarının olmasını əsas tutaraq Azadlıq blokundan olan namizədlərin canlı yayımını dayandırmışdır və bunula da yayım üçün nəzərdə tutulan bütün çıxışlar məzmunun yoxlanması məqsədilə əvvəlcədən yazılmışdır. Azadlıq bloku bu barədə, yəni digər namizədlərin birbaşa çıxışlarının hər hansı bir məhdudiyyət olmadan verildiyi halda, bunun onların hüquqlarının pozulması adı ilə MSK-ya şikayət etmişdir. MSK bu şikayətə baxmamış, yaxud da müvafiq qərar qəbul etməmiş və onu öz mətbuat işçi qrupuna göndərmişdir. AzTV Azadlıq blokunun canlı kampaniya yayımları üzərindən həmin qadağanı üç gündən sonra götürmüşdür.

Oktyabrın 25-də Şura odənişli yayımların həftə ərzində ümumi həcminin altı saatdan artıq olmaması tələbi ilə ANS-ə xəbərdarlıq ünvanladı. Bununla Şura öz səlahiyyət həddini aşmışdır,

çünki Seçki Məcəlləsi ödənişli yayım vaxtının məbləğini yalnız Dövlət tabeliyində olan teleradio şirkətləri üçün məhdudlaşdırır. Bundan savayı, Teleradio Yayımları haqda qanuna müvafiq olaraq, MSK pulsuz və ödənişli yayım vaxtının ayrılması üzərində nəzarəti həyata keçirmək öhdəliyinə malikdir.

Dövri media plüralizmi təmin etmiş, lakin çox zaman müəyyən siyasi partiyaları, yaxud blokları dəstəkləmişdir. Dövlət tabeliyində olan və ATƏT\DTİHB SMM tərəfindən monitorinqi aparılan qəzetlər açıq-aşkar məmurların tərəfində durmuşdur.

Jurnalistlərə fiziki hücumların olması halı əvvəlki seçkilərdən az olsa da, problem olaraq qalmaqda davam etmişdir. Bir neçə dəfə seçki prosesini izləyən jurnalistlərə həmlə edilməsi və saxlanması halları baş vermişdir. Məsələn, 9 oktyabrda müxaliət tərəfindən keçirilən aksiya zamanı qeyri-müəyyən şəxslər, xüsusi göy rəngli Press gödəkcəsi geyinməsinə baxmayaraq, *Zerkalo* qəzetinin jurnalistinə hücum edərək ona xətər yetirmişlər.

**Şikayət və Müraciət Halları**

Seçki komissiyalarının və prokurorluğun icra orqanları və namizədlər tərəfindən törədilən ciddi qanun pozuntularını cavablandırmaması və buna qarşı tədbir görməməsi seçki prosesinə nəzərəçarpacaq dərəcədə və mənfi təsir göstərmişdir. Kampaniya zamanı baş verən əksər qanun pozuntuları barədə lazımi cəza tədbirləri görülməmişdir.

Yüksək səviyyəli dövlət rəsmiləri ATƏT/DTİHB SMM-ə və AŞPA-nın seçkiqabağı missiyasına yerli icra orqanlarının seçki prosesinə müdaxilə etməkdə davam etdiyini bildirmişlər və Prezidentin 25 oktyabr tarixli sərəncamı da bunu təsdiq etmişdir. MSK-da qeydiyyatdan keçən 550-dən artıq şikayətin 25 faizi yerli icra və digər dövlət orqanlarının müdaxilə edərək qanunu pozması barəsindədir. MSK cinayət tərkibi olması ehtimal edilən və barəsində təhqiqat aparılmalı olan ən azı 35 iş barəsində Baş Prokurora məlumat vermişdir. Lakin bu işlərdən yalnız yeddisi yerli icra orqanlarının prosesə müdaxiləsi barəsində olmuşdur.

MSK noyabr ayının 1-dək şikayətlərə baxılması ilə bağlı prosedur qaydaları, yaxud aşağı səviyyəli seçki komissiyalarında şikayətlərə baxılması ilə bağlı heç bir təlimat hazırlamamışdır və bu da seçki prosesinə öz təsirini göstərmişdir. Ümumilikdə, şikayətlərə baxılması prosesi göstərir ki, seçki ilə məşğul olan məmurlar qanun pozuntularının ədalətli və lazımı qaydada aradan qaldırılmasını ya bacarmamış, yaxud bunu etmək niyyətindən olmamışlar. Bir çox hallarda müxalifət və müstəqil namizədlər tərəfindən edilən şikayətlərlə bağlı qərarlar qərəzsiz olmamışdır. Qərarların verilməsi qanunda tələb olunduğu kimi 3 gün ərzində deyil, xeyli gecikdirilərək verilmiş, şikayətlərlə bağlı təhqiqat işinin aparılması zahiri xarakter daşımışdır. Bəzi DSK-ları şikayətləri bütün təfərrüatı ilə SMM müşahidəçilərinə açıqlamaqdan imtina etmişlər. DSK-ları tərəfindən yerli icra orqanlarının qeyri-qanuni müdaxiləsi ilə bağlı verilən xəbərdarlıqlar nadir hallarda effektiv olmuşdur. Bu isə namizədlərin şikayətlərə baxılması prosesinə inamını daha da azaltmışdır.

Təqdirəlayiq hal olaraq, noyabr ayının 1-də Baş Prokuror elan etdi ki, seçkilər zamanı qanun pozunutusu ilə bağlı 5 hadisə barəsində iş açılmışdır. 19 hadisə barəsində iş açılmaması qərarı verilmiş və iki iş üzrə proses hələ başa çatmamışdır.

Konstitusiya Məhkəməsi MSK-nın və Apelyasiya Məhkəməsinin Hacıağa Nurinin namizədliyinin ləğv olunması haqqında qərarını ləğv etdi. "Azərbaycan Naminə" seçki blokunun namizədi kimi irəli sürülən Hacıağa Nuri blokun sənədlərində İslam partiyasının nümayəndəsi kimi qeyd

olunmuşdu. Məhkəmə qərara almışdır ki, namizədin Konstitusion hüquqları pozulmuşdur və cənab Nuriyə seçkilərdə iştirak etməyə icazə verilmişdir.

## Qadınların İştirakı

Azərbaycanın siyasi həyatında qadınlar lazımi səviyyədə təmsil olunmurlar. Müddəti başa çatmaqda olan Parlamentin 124 üzvündən 14-ü qadındır. Hakimiyyətdə olan 18 nazirdən heç biri qadın deyil. Konstitusiyaya əsasən qadınlar bərabər hüquqlara malikdirlər, lakin Azərbaycanda keçirilən seçkilərdə qadınların iştirak səviyyəsini qaldıracaq hər hansı əlahiddə tədbir görülməmişdir. Seçki sistemində proporsional sistemə dair namizədlərin siyahısının ləğv olunması və tək-mandatlı seçki sisteminə keçilməsi qadın namizədlərin seçilmək şansını azalda bilər. Qeydiyyata alınmış 2063 namizddən yalnız 214-ü qadın olmuşdur, seçki günündən qabaq 45-i öz namizədliyini geri götürmüşdur, deyilənlərə görə bəziləri bunu təzyiqlər nəticəsində etmişdir. Kampaniya fəalları arasında qadınlar çox az faiz təşkil edirlər.

Seçki idarə edilməsinin yuxarı səviyyəsində qadınların təmsil olunması aşağı səviyyədədir. MSK-nın 15 üzvündən 2-si qadındır və 125 DSK sədrləri arasında isə 3 qadın vardır. Qadınlar daha çox MnSK səviyyəsində təmsil olunmuşlar, bu səviyyədə iştirak dərəcəsi 25 faizdir və sədrlərin təqribən 26 faizini qadınlar təşkil etmişdir.

## Yerli Müşahidəçilər

İctimai birliklər və fondlar haqqında qanuna 28 oktyabr tarixində dəyişiklik edilmiş və büdcəsinin 30 faizindən çoxu xaricdən maliyyələşən yerli QHT-lər tərəfindən seçkilərin müşahidə edilməsinə dair qoyulan qadağa ləğv edilmişdir. Bununla Avropa Şurasının Venesiya Komissiyasının və ATƏT/DTİHB-nun əvvəlki tövsiyyəsi həyata keçirilmişdir. Bu dəyişiklik əksər yerli müşahidəçilər qeydiyyatdan keçdikdən sonra edildiyindən bu seçkilərdə praktiki olaraq az effekt verəcəkdir, lakin dəyişiklik özlüyündə seçki prosesinə ictimai inamın artırılması istiqamətində irəliyə atılmış bir addımdır və gələcəkdə yerli müşahidəçilərin iştirakına imkan yaradacaqdır.

Seçki Monitorinq Mərkəzi uzun müddətli müşahidələr aparmışdır. Seçki Monitorinq Mərkəzi, Vətəndaş Cəmiyyəti Uğrunda və Azad və Ədalətli Seçkilərin Əlaqələndirici Məşvərət Şurası daxil olmaqla bir neçə QHT seçki günündə iri sayda qısa-müddətli müşahidəçilərini yerləşdirmişdir. BSMM müşahidəçiləri müşahidə etdikləri seçki məntəqələrinin 97 faizində yerli müşahidəçilərin seçkiləri müşahidə etdiyinin şahidi olmuşdur. Lakin yerli müşahidəçilərin məntəqələrdən uzaqlaşdırılması barədə məlumatlar daxil olmuşdur.

Ümumilikdə yerli müşahidəçilərin qeydiyyatı böyük narahatçılığa səbəb olmamışdır. Lakin Seçki Monitorinq Mərkəzi (SMM) işçilərin polisə gəlmələrinin xahiş olunduğu və fəaliyyətləri ilə bağlı dindirilmələri, yaxud da polisi təlim keçənlərin siyahısı ilə təmin etmələrinin tələb olunduğu üç hal barədə məlumat vermişdir. Oktyabrın 26-da və növbəti gün polis SMM-in mərkəzi ofisinə gəlmiş, Bakı bolgəsi uzrə əlaqələndirici bir neçə saatliğa saxlanılaraq, dindirildikdən sonra buraxılmışdır.

## Seçki Günü və Səslərin Hesablanması

Seçki demək olar ki, sakit şəraitdə keçmişdir. Ümumilikdə müşahidəçilər müşahidələr apardıqları məntəqələrin 87 faizində prosesin gedişini müsbət və kifayət qədər yüksək göstərici olan 13 faizində mənfi qiymətləndirilmişdirlər. SBMM-nın müşahidələr apardığı məntəqələrin 6 faizində seçiciyə seçimini etməsi zamanı təsir edilməsi, təxminən 9 faizində icazəsiz şəxslərin olmasını

müşahidə etmiş və ümumilikdə müşahidələr aparılmış məntəqələrdən 14 faizində gərginliyin olması barədə məlumat vermişlər. Bundan əlavə digər ciddi qanun pozuntuları arasında müşahidələr aparılmış məntəqələrdə əvvəlcədən işarənmiş bülletenlərin seçki qutusuna atılması və seçici vəsiqəsindən istifadə qaydalarına davamlı surətdə əməl olunmamasını göstərmək olar. Müşahidə edilmiş məntəqələrin 19 faizində qrup şəklində yaxud ailəlikcə səs vermə probleminin qaldığı müşahidə edilmişdir.

Barmaqların mürəkkəblə işarələnməsi prosesi, xüsusilə barmaqda mürəkkəbin olmasını aydınlaşdırma prosesi müşahidə edilən məntəqələrdən 11 faizində tətbiq edilməmişdir. Bəzi məntəqələrdə isə ümumiyyətlə bu qaydaya əməl edilməmiş və bu cür izahat verilmişdir ki, barmaqların mürəkkəblə işarələnməsi gec tətbiq edildiyindən təlimatlandırma, seçicilərin məlumatlandırılması və bu metodun icrası baxımından seçkinin idarə edilməsində xeyli çətinliklər yaratmışdır. SBMM-nın müşahidəçiləri bəzi hallarda seçki qutularının ölçüsünün qeyri-kafi olması haqda məlumat vermişlər.

Müşahidələr aparılmış məntəqələrin demək olar ki, hamısında namizədlərin nümayəndələri və heç bir partiyaya mənsub olmayan yerli müşahidəçilər olmuşdur. Lakin məntəqələrdən yerli müşahidəçilərin və MnSK üzvlərinin uzaqlaşdırılması və ya xaric edilməsi halları müşahidə edilmişdir. SBMM müşahidə etmişdir ki, icra orqanlarından olan məmurlar və YAP partiyasından olan müşahidəçilər ya prosesə müdaxilə edir , ya prosesi istiqamətləndirir, yaxud da seçicilərə təsir etməyə cəhd edir.

Qeyri-adekvat yerlərin səsvermə məqsədi ilə müəyyən edilməsi (15 faiz) seçki məntəqələrində sıxlığın yaranmasına (14 faiz) səbəb olmuş və bəzən prosesin şəffaflığını azaltmışdır. Qiymətləndirmələrə əsasən seçki məntəqələrinin təqribən 43 faizində əlillər iştirak edə bilməmişlər.

Ümumilikdə seçki məntəqələrində şərait səslərin hesablanması vaxtı kəskin şəkildə pisləşmişdir. Beynəlxalq müşahidəçilər müşahidə etdikləri sayılma proseslərindən 43 faizini pis yaxud çox pis kimi qiymətləndirmişlər və elan olunan nəticələrə inamın çox az olması barəsində məlumat vermişlər. Nəticələri əks etdirən protokolun təhrif olunması (15 faiz), nəticələri əks etdirən protokolun karandaşla doldurulması (15 faiz), müşahidəçilərə hədə-qorxu gəlinməsi (17 faiz) və icazəsiz şəxslərin seçki prosesini istiqamətləndirməsi (14 faiz) halları da daxil olmaqla ciddi qanun pozuntularının baş verməsini müşahidə etmişlər. MnSK-nin 25 faizindən çoxu vacib qaydalara əməl etməmişlər. Protokolun bir başa DSK-na aparılmaması kimi bəzi hallar da baş vermişdir. Müşahidə edilən sayılma proseslərindən 54 faizində nəticələri əks etdirən protokol qanuna zidd olaraq görünən yerdə asılmamışdır.

Müşahidələr aparılmış DSK-lar barəsində edilən qiymətləndirmələrə əsasən dairə səviyyəsində səslərin hesablanması prosesinin 31 faizi pis, yaxud çox pis şəkildə həyata keçirilmişdir. Hesablanma qaydalarına davamlı surətdə əməl edilməmişdir və müşahidə edlimiş yerlərdən 24 faizində işin təşkili pis yaxud çox pis kimi qiymətləndirilmişdir. Müşahidəçilər müşahidə apardıqları yerlərdən 19 faizində seçkilərin nəticəsinə inamın xeyli aşağı olması barədə məlumat vermişdirlər. Bütün DSK-ları və MSK arasında kompyuter şəbəkəsinin olmasına baxmayaraq, 7 noyabr saat 11:00-a qədər MSK heç bir məntəqənin nəticəsinin internetdə yerləşdirməmişdir.

## Missiya haqqında Məlumat və Təşəkkürlər

ATƏT/DTİHB Seçkiləri Müşahidə Missiyası (SMM) 2005-ci ilin sentyabr ayının 5-də paytaxtda və 13 regional mərkəzlərdə fəaliyyətə cəlb olunmuş 18 ekspert və 30 uzun-müddətli müşahidəçi ilə Bakıda öz işinə başlamişdır. Seçki günü Seçkiləri Beynəlxalq Müşahidə Missiyasının (SBMM)

tərkibinə ATƏT-in Parlament Assambleyasindan 62, Avropa Şurasının Parlament Assambleyasından 51, Avropa Parlamentindən 12, NATO-nun Parlament Assambleyasından 11 parlament üzvü daxil olmaqla 617 qısamüddətli müşahidəçi dəvət olunmuşdur. Ümumilikdə ATƏT-ə üzv olan 42 dövlətdən müşahidəçilər olmuşdur. SBMM bütün ölkə üzrə 2500-dən çox səsvermə məntəqəsində səsverməni və səsvermənin nəticələrinin hesablanmasını müşahidə etmək məqsədilə səsvermə məntəqələri bağlandıqdan sonra 90 DSK-da səslərin hesablanması prosesini müşahidə etmişdir.

ATƏT-in Parlament Assambleyasının Prezidenti qısamüddətli müşahidəçilərə rəhbərlik etmək məqsədilə ATƏT-in Fəaliyyətdə olan Sədri Möhtərəm Alsi Hastinqsi Xüsusi Əlaqələndirici kimi təyin etmişdir. Cənab Leo Platvoet Avropa Şurasının Parlament Assambleyasının Nümayəndə Heyətinə rəhbərlik etmişdir. Xanım Marie Anne İsler Bequin Avropa Parlamentinin Nümayəndə Heyətinə, cənab Mişel Klafam NATO Parlament Assambleyasının Nümayəndə Heyətinə rəhbərlik etmişdir. Cənab Gert-Hinrix Arens ATƏT\DTİHB-in Seçkiləri Müşahidə Missiyasına başçılıq etmişdir.

SBMM Azərbaycan Respublikası Hökumətinə seçkiləri müşahidə məqsədilə etdiyi dəvətə, akkreditasiya sənədlərinin təmin edilməsinə görə Mərkəzi Seçki Komissiyasına, göstərdikləri yardım və əməkdaşlığa görə Xarici İşlər Nazirliyinə, digər dövlət və yerli hakimiyyət orqanlarına öz dərin təşəkkürlərini bildirmək istəyir. SBMM həm də ATƏT-in Bakı Ofisinə missiyanın bütün fəaliyyəti ərzində göstərdiyi yardıma, ATƏT-ə üzv olan ölkələrin Bakıdakı Səfirliklərinə göstərdikləri dəstəyə görə təşəkkür etmək istəyir.

Əlavə məlumat üçün aşağıdakı əlaqə məlumatlarından istifadə edin:

- Xanım Urdur Gunnarsdottir, ATƏT\DTİHB - Mətbuat Katibi, yaxud cənab Conatan Stounstrit, ATƏT\DTİHB-in Seçkilər üzrə Məsləhətçisi, Varşava (Tel: +48-22-520-06-00);
- Cənab Vladimir Dronov, Avropa Şurasının Parlament Assambleyası, Strasburq (Tel: +33-388-41-20-00);
- Xanım Tina Şön yaxud cənab Andreas Beyker, mətbuat işçisi, ATƏT-in Parlament Assambleyası, Kopenhagen (Tel: +45 33 37 80 40);
- Cənab Tomas Qrunert, Avropa Parlamenti, Brüssel (Tel: +32 2 284 37 43);
- Xanım Roberta Kalorio, yaxud xanım Ruksandra Popa, NATO Parlament Assambleyası, Brüssel (Tel: +32 2 513 28 65).

***Bu hesabatın İngilis dilində olan variantı yeganə rəsmi sənəddir.***